

# Kitabxananın fəal oxucusunun növbəti rəsm sərgisi

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın icrası ilə əlaqədar istedadlı oxucularla iş aparır, gənc istedadları müəyyən edərək onlara dəstək olur.**

Bu barədə qurumun məlumatına görə, M.Ş.Vazeh adına Mərkəzi Kitabxanada kitabxananın fəal oxucusu, Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının 7-ci sinif şagirdi Əminə Hidayətlinin növbəti fərdi rəsm sərgisi açıldı.

Əminə Hidayətli kiçik yaşlarından rəssamlıqla məşğul olmağa başlayıb. O, respublikada və xarici ölkələrdə keçirilən rəsm müsabiqələrində iştirak edib, diplomlarla təltif edilib. Bakıda keçirilən COP29-da Ə.Hidayətlinin də əsərləri nümayiş olunmuşdu.

Kitabxanada açılan sərgidə "İçərişəhər", "Dolçalar", "Lavanda zəmisi", "Naxçıvan mətbəxi", "Günəbaxanlar", "Şir", "Qız", "Mərakeş məhəlləsi", "Pionlar", "Ağ çiçəklər" rəsmləri, "Payız natürmortu" və "Meyvə-tərəvəzli natürmort" nümayiş olunur.

Sərgi Novruz bayramınadək davam edəcək.

**"Respublika".**

Respublika.- 2025.- 8 yanvar (№ 02).- S.16.